TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

---

**HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**ONUNCU İCLAS**

**Ankara, 9 mart 2023-cü il**

# TÖVSİYƏ QƏRARI

## "TÜRKPA-nın 15-ci İLDÖNÜMÜ: ÜZV DÖVLƏTLƏR ARASINDA ƏMƏKDAŞLIQ"

Parlament Assambleyası

TÜRKPA-nın üzv ölkələr arasında dostluq əlaqələrinin inkişafında böyük əhəmiyyət kəsb etdiyini ***nəzərə alaraq;***

Sülh, sabitlik və firavanlıq, mehriban qonşuluq münasibətləri, qarşılıqlı hörmət və dialoq istiqamətində regional əməkdaşlığın dəstəklənməsi və gücləndirilməsi üçün mövcud imkan və resurslardan ən yaxşı şəkildə istifadə etməklə türk dövlətləri coğrafiyasının bütün sahələrində fəal əməkdaşlığın inkişaf etdirilməsinin böyük əhəmiyyətini ***vurğulayaraq;***

Üzv dövlətlər arasında ortaq coğrafi, tarixi və mədəni dəyərlərdən doğan həmrəyliyə güvənərək, Türk əməkdaşlığın geniş məsələlər və təşəbbüslər üzrə səmərəli dialoq üçün zəmin yaratmaqla regionda sosial, siyasi, iqtisadi və mədəni əməkdaşlığı, xüsusən də həqiqi tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərinin qurulmasını daha da təşviq edəcəyinə ***inanaraq;***

Bütün regionun rifahı naminə iqtisadi, sosial, humanitar və ekoloji problemlərin həllində milli parlamentlərin səylərinin əlaqələndirilməsində

son on beş ildə TÜRKPA-nın potensial rolunun əhəmiyyətinə ***istinad edərək;***

Üzv dövlətlər arasında əməkdaşlıqda dialoqun gücləndirilməsinin TÜRKPA üzv ölkələrinin regionunda birlik və həmrəyliyin təşviqinə, o cümlədən sülh və sabitliyin inkişafına töhfə verəcəyini ***qəbul edərək;***

TÜRKPA-nın üzv dövlətlərin beynəlxalq və regional strukturları ilə qarşılıqlı fəaliyyətinə əsaslanan əməkdaşlıq əlaqələrini artıracağına və qarşılıqlı etimada, tərəfdaşlığa və anlaşmaya əsaslanan ruhun yaradılmasına kömək edəcəyinə inamı qoruyub ***saxlayaraq;***

Beynəlxalq qurumların fəaliyyətində bütün səviyyələrdə fəal iştirakın vacibliyini, bu cür fəal iştirakın mövcud sosial-iqtisadi mənzərəni yaxşılaşdıracağını və TÜRKPA regionunda sülh, sabitlik və rifaha töhfə verəcək daha konstruktiv və inkişaf elementlərini özündə birləşdirəcəyini ***ifadə edərək;***

TÜRKPA üzv parlamentləri arasında əməkdaşlığın türk dünyasının sabitliyi üçün ortaq məqsədlərə nail olmaqda milli səylərin və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə şərait yaratdığını ***vurğulayaraq;***

TÜRKPA-nın müntəzəm görüşlərinin və onun milli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin üzv dövlətlərin parlamentləri arasında əməkdaşlıqda ümumi təməlin təmin edilməsi istiqamətində ciddi addımlar olduğunu ***qeyd edərək;***

TÜRKPA bu əməkdaşlığın ölkələrin əvəzolunmaz uğuru olduğunu və gələcək illərdə daha da gücləndirilməli və genişləndirilməli olduğunu anlayır. Mövcud əməkdaşlığın uğurunu qarşılıqlı inam, məsləhətləşmə və konsensusa əsaslanan işlək həll yollarını vurğulayan birlik və öhdəliklərin davamı kimi ***görərək***;

TÜRKPA yeni əsrin yaratdığı çağırışlara effektiv cavab verməkdə öz rolunu daha da gücləndirməlidir və bütövlükdə daha geniş TÜRKPA regionunda və xüsusən də hər bir üzv dövlətdə fəal rol almaq əzmini daha da ***üstün tutaraq***;

TÜRKPA-nın ötən illər ərzində üzv dövlətlər arasında əlaqələrin inkişafına və əməkdaşlığın gücləndirilməsinə töhfə verən mühüm təşkilata çevrildiyini ***nəzərə alaraq,***

TÜRKPA üzv parlamentlərinə tövsiyə edir:

a) “Türk dünyasına baxış - 2040”-ın ortaq məqsədlərinə nail olunmasında TÜRKPA regionunda bütün sahələrdə əməkdaşlıq potensialından tam istifadə edilməsi, regionda sülh, təhlükəsizlik və sabitliyin hökm sürməsi və ölkələr arasında daha əhatəli sinerjinin ***yaradılması;***

b) Müvafiq sahələrdə çoxtərəfli regional əməkdaşlığın gücləndirilməsi üçün müvafiq mexanizmlərin işlənib hazırlanması məqsədilə TÜRKPA-nın Tövsiyələrinin icrasına ***riayət edilməsi;***

*c)* Üzv dövlətlərdə mövcud qanunvericilikdə çoxtərəfli layihələrin və sazişlərin vaxtında həyata keçirilməsinə imkan verəcək dəyişiklikləri ***təşviq edilməsi***;

*d)* regionda sülh, sabitlik və rifahı təmin etmək və mövcud ikitərəfli və ya çoxtərəfli saziş və mexanizmlərdən məqsədəuyğun istifadə etməklə səmərəli fəaliyyətin həyata keçirilməsi və müvafiq prioritet sahələrdə yeni alətlərin ***aktivləşdirilməsi;***

*e)* Təmin edilən sülh və sabitlik mühitindən və rifah səviyyəsindən faydalanmaq məqsədilə TÜRKPA-ya üzv olmayan türk mədəni coğrafiyasına aid olan bölgə və ölkələrin TÜRKPA ilə, xüsusilə Türk Dövlətləri Təşkilatına üzv dövlətlərlə sıx əlaqədə olmasının ***təşviq edilməsi;***

*f)* Komissiyanın Hüquqi məsələlər və beynəlxalq əlaqələr üzrə əvvəlki tövsiyə qərarlarının mətnlərində də bir neçə dəfə qeyd olunan TÜRKPA üzv ölkələri parlamentlərinin üzvləri və ekspertləri arasında təcrübə mübadiləsinə uyğun olaraq əməkdaşlığın ***inkişaf etdirilməsi;***

*g)* təcrübə mübadiləsi və regional əməkdaşlığı yeni konsepsiyalarla zənginləşdirmək məqsədilə dünya miqyasında, regional və ya subregional qurumlarla iş bağlantıları və əlaqələrinin ***inkişaf etdirilməsi;***

*h)* TÜRKPA üzv ölkələrinin siyasi və iqtisadi sabitliyi baxımından qarşılıqlı dəstəyinin üzv dövlətlər arasında əməkdaşlıq mexanizminin təməl daşı kimi ***qəbul edilməsi;***

*i)* TÜRKPA üzv parlamentlərinin Beynəlxalq əlaqələr və digər aparıcı komitələrin sədrlərinin iclaslarının müntəzəm olaraq əzm və qətiyyətlə ***təşkil edilməsi;***

j) TÜRKPA son on beş ildə ümumi hədəflərə çatmağın dəstəklənməsində təsirli bir platformaya çevrildiyi üçün inkişafı dəstəkləyən yeni regional əməkdaşlıq modelinin inkişafında mühüm konstruktiv rol oynamağa ***davam etdirilməsi***.